# Dövlət Statistika Komitəsi nümayəndələrinin Brüssel şəhərində təşkil olunmuş "Statistika və faktlara əsaslanan qərarların qəbulu"na dair seminarda iştirakı haqqında

Dövlət Statistika Komitəsinin nümayəndələri, Statistika işlərinin əlaqələndirilməsi şöbəsinin müdiri Alxan Mansurov və həmin şöbənin Beynəlxalq əlaqələr sektorunun müdiri Fərhad Əliyev 2012-ci ilin 3-4 may tarixlərində Avropa İttifaqının Genişlənmə üzrə Baş direktorluğu və Avropa Statistika İdarəsi tərəfindən birgə təşkil olunan Genişlənmə və AQS-Şərq ölkələrinin "Statistika və faktlara əsaslanan qərarların qəbulu"na dair seminarda iştirak etmişlər. Seminar strategiyaların hazırlanmasında və dövlət idarəetmə sahəsində aparılan islahatlarda statistikanın rolunun müəyyənləşdirilməsi və statistikanı necə formalaşdırmağa dair dialoqda qərar qəbul edənləri və statistikləri bir araya gətirmək məqsədilə təşkil edilmişdir. Seminarın konkret məqsədləri isə Avropa Statistika Sisteminin hazırkı vəziyyəti və statistika üzrə vahid normativ bazanın uyğunlaşdırılması barədə tərəfdaş ölkələrə yenilənmiş məlumatların təqdim olunması, statistika üzrə Aİ tələblərinin yerinə yetirilməsinə dair Aİ-yə üzv dövlətlərin və ya digər ölkələrin təcrübələrinin paylaşılması, tərəfdaş ölkələri vahid normativ bazanın əsas sahələrində öz statistik məlumatlarının keyfiyyət və istifadəsini təkmilləşdirməyə təşviq etmək, dövlət idarəetməsinin islahat prosesində qərarların qəbulunda statistikanın daha yaxşı istifadəsinə və strategiyaların işlənib hazırlanmasında statistika üzrə layihələrə və gələcək əməkdaşlığa təkan verməkdən ibarət olmuşdur.



Seminar iştirakçılarının ümumi sayı 78 nəfər idi. Azərbaycan nümayəndə heyətinin tərkibinə Komitənin nümayəndələri ilə yanaşı Nazirlər Kabinetinin İqtisadiyyat və maliyyə-kredit siyasəti şöbəsi müdirinin müavini, İqtisadi İnkişaf Nazirliyinin İqtisadi siyasət, təhlil və proqnozlaşdırma şöbəsinin aparıcı məsləhətçisi və Mərkəzi Bankın Statistika departamentinin böyük mütəxəssisi də daxil idi.

Seminarda 2009-2012-ci illərdə Dövlət Statistika Komitəsində yerinə yetirilmiş “Milli hesablar, müşahidə olunmayan iqtisadiyyat, biznes statistikası və istehsalçı qiymətləri indeksi sahələrinin Avropa standartlarına çatdırılması sahəsində Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinə dəstək” Tvinninq layihəsi barədə nümayəndəmiz A.Mansurov və Bolqarıstan Milli Statistika İnstitutunun mütəxəssisi, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsində Tvinninq üzrə Rezident Müşavir kimi fəaliyyət göstərmiş Sergey Çvetarski tərəfinfən çıxış və təqdimatlar edildi. Layihəyə cəlb olunan tərəfdaşlar, layihənin yerinə yetirilmə mərhələləri, layihə dövründə Aİ-yə üzv dövlətlərin mütəxəssislərinin Dövlətstatkoma etdikləri ekspert səfərləri, Dövlətstatkomun mütəxəssisləri tərəfindən Aİ-yə üzv dövlətlərin statistika təşkilatlarına edilən təlim səfərləri, hər bir komponent üzrə əldə olunan nəticələr, layihənin sonunda keçirilmiş konfrans, bu konfransda Almaniya Federal Statistika İdarəsi, Bolqarıstan Milli Statistika İnstitutu, Çexiya Statistika İdarəsi, Litva Statistika İdarəsi rəhbərlərinin və Avrostatın nümayəndəsinin iştirakı ilə keçirilmiş yüksək səviyyəli görüş və eləcədə Tvinninq layihəsi ilə yanaşı bu dövr ərzində həyata keçirilmiş TAİEX layihələri barədə məlumat verildi. Tvinninq layihəsi üzrə keçirilmiş konfransa həsr olunmuş bülleteni və onun CD-lərdə olan elektron versiyası Dövlətstatkomun nümayəndələri tərəfindən seminar iştirakçılarına paylanıldı. Eyni zamanda Məlumatların keyfiyyəti, Coğrafi informasiya sistemi, Metaməlumat sistemi, Sosial və ev təsərrüfatları statistikası komponentlərindən ibarət ikinci Tvinninq layihəsi barədə məlumat verildi.